# AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ

AZ 1025, Bakı şəhəri, Yusif Səfərov küçəsi 26 Tel.: (+994 12) 489-07-07 Faks: (+994 12) 498-72-69 Veb: www.supremecourt.gov.az Elektron poçt: contact@supremecourt.gov.az

**8 aprel 2026-cı il** **1-8-11-2/2-2474/2026**

**Azərbaycan Respublikasının rayon (şəhər) və apellyasiya məhkəmələrinə**

Xəstəliyə görə cəzanı çəkməkdən azad etmə institutu humanizm prinsipindən irəli gəlməklə cəzanın fərdiləşdirilməsi və ədalət prinsiplərinin təmin olunmasına xidmət edir. Bu institutun tətbiqi cəzanın törədilmiş cinayətə görə yalnız sitəm olmaması haqqında ümumi demokratik dəyərlərə xidmət edərək, məhkumun sağlamlıq vəziyyətini və onun cəzanı faktiki çəkmək imkanının olub-olmamasını nəzərə almaqla cinayət törətdikdən sonra cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düçar olan şəxsin cəzadan azad edilməsini özündə ehtiva edir.

Təcrübə göstərir ki, bəzi hallarda xəstəliyə görə cəzanı çəkməkdən azad etmə barədə məhkum, onun müdafiəçisi və ya qanuni nümayəndəsi tərəfindən edilmiş müraciətlərə məhkumun xəstəliyini təsdiq edən sənədlər əlavə olunmur, eləcə də müraciətlə bağlı mövqeyinin dəqiqləşdirilməsi üçün məhkumun məhkəmə iclasında bilavasitə iştirakı təmin olunmadan və ya iştirakı ilə bağlı məsələ lazımi qaydada həll olunmadan onun cəzanın çəkilməsinə mane olan ağır xəstəliyə düçar olub-olmaması ilə bağlı həkim komissiyasının rəyinin alınması üçün tibbi şəhadətləndirilmə barədə qərar qəbul olunur.

Bu da sui-istifadə hallarının yaranmasına, o cümlədən əsassız müraciətlər nəticəsində zəruri olmayan təxliyələrin həyata keçirilməsinə və əlavə tibbi müayinələrin aparılmasına səbəb olur.

Göstərilənləri nəzərə alaraq məhkəmələrə xəstəliyə görə cəzanı çəkməkdən azad etmə barədə məhkum, onun müdafiəçisi və ya qanuni nümayəndəsi tərəfindən verilmiş ərizələrlə əlaqədar işin hallarının tam, hərtərəfli və obyektiv araşdırılması, o cümlədən müdafiəçinin və

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/9H%2FujhWcEXcCOyGPMkb2DikkPwP80D1b5EJ1x%2BNlfLE%3D

ya qanuni nümayəndənin ərizələrinə dair məhkumun mövqeyinin dəqiqləşdirilməsi üçün həmin müraciətlərə məhkum edilmiş şəxslərin iştirakı ilə baxılması, səhhətinin vəziyyəti məhkumun məhkəmə iclasında bilavasitə iştirak etməsinə imkan vermədikdə videokonfrans əlaqə sistemindən istifadə olunması, müraciətə məhkumun iddia edilən xəstəliyə düçar olduğunu təsdiq edən tibbi sənədlərin əlavə olunmadığı aşkar edildikdə belə natamamlığın cəzanı icra edən müəssisə və orqanlardan həmin sənədlər tələb edilməklə aradan qaldırılması tövsiyə olunur.

**Cinayət kollegiyasının sədri** **Hafiz Nəsibov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
AZƏRBAYCAN RESPUBLİKASININ ALİ MƏHKƏMƏSİ
İmzalayan şəxs: Hafiz Nəsibov / Cinayət kollegiyası / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify.sesda.az/info/esign/9H%2FujhWcEXcCOyGPMkb2DikkPwP80D1b5EJ1x%2BNlfLE%3D